**Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi**
**Lənkəran Dövlət Universiteti**

Təsdiq edirəm
Tədris məsələləri üzrə prorektor v.i.e:
__________dos. Zaur Məmmədov
"____" ______ 2025-ci il

## Fənn sillabusu

**İxtisas: 6008007 - "Turizm bələdçiliyi"**
**Fakültə:** "İqtisadiyyat və idarəetmə"
**Kafedra:** "İqtisadiyyat və innovativ idarəetmə"

**1. Fənn haqqında məlumat :**

**Fənnin adı:** "Bələdçiliyin əsasları" ("İqtisadiyyat və innovativ idarəetmə" kafedrasının 22.12.2025-ci il 04 saylı protokolu ilə təsdiq edilmişdir).
**Fənnin kodu:** İPF-B03
**Tədris ili:** II (2025-2026). Semestr: III
**Tədris yükü cəmi**:50 saat. Auditoriya yükü-14 saat (Mühazirə-10 saat, seminar- 4 saat).
**Təhsilalma forması:** Qiyabi
**Tədris dili:** Azərbaycan dili
**AKTS üzrə kredit:** 5

**II.Müəllim haqqında məlumat:**

**Adı, soyadı, elmi dərəcəsi:** *Dadaşova İlkana Nəsib qızı, müəllim*
**Kafedranın ünvanı:** Lənkəran şəhəri, Füzuli küç., 170 a, 1 saylı korpus.
**Məsləhət saatı** II-IV günlər: saat $10^{00}$-$12^{00}$
**E-mail ünvanı:** ***ilkanahacizade@mail.ru***

**III. Tövsiyyə olunan dərslik və dərs vəsaitləri:**

1. A. Abdullayeva "Azərbaycanda turizm və onun təbliğində kitabxanaların rolu", Bakı, 2011, s. 102
2. "Turizm haqqında" Azərbaycan Respublikasının Qanunu, 27 iyul 1999-cu il, Bakı.
3. Məmmədov C.A.. Soltanova H. B., Rəhimov S.H. "Beynəlxalq turizmin coğrafiyası". Bakı, 2002
4. Rəhimov S.H. "Turizm-ekskursiya işinin təşkili", Bakı, 2004
5. Ə.Q.Əlirzayev, E.Ə.Əlirzayev "Azərbaycanın sosial-iqtisadi problemləri, konseptual yanaşma, maliyyə-büdcə və sahələrarası proqnozlaşdırma mexanizmləri". Bakı-2012, 583 s.
6. Turizmin əsasları: dərslik / müəllif kollektivi; dosent B.Ə.Bilalov və dos.Ç.G.Gülalıye-vin redaktəsi ilə. Bakı, "QHT Nəşriyyatı", 2015. 496 s.
7. https://en.oxforddictionaries.com/definition/destination

**IV.Prerekvizitlər:** Fənnin tədrisi üçün öncədən "Turizmə giriş" və "Dayanıqlı turizm" kimi fənlərin tədrisi zəruridir.

**V.Korekvizitlər:** Bu fənnin tədrisi ilə eyni vaxtda "Menecmentin əsasları " və "Marketinqin əsasları" fəninin tədrisinə ehtiyac vardır.

**VI.Fənnin təsviri və məqsədi**: Bələdçiliyin əsasları fənni bələdçilik anlayışı və formalaşması aspektlərini və eləcə də bu peşənin formalaşma istiqqamətlərini izah edir. Turizmdə bələdçiliyin inkişafı geniş müzakirə predmeti olsada onun sahə, ərazi, funksional



CamScanner ilə skan edilib

menecment baxımından idareedilməsi bir sıra makroiqtisadi problemlər və cevik idarəetmə proqramları əsasında mümkündür. Bələdçiliyin əsasları fənninin tədrisində bələdçilik anlayışının əsası, onun sahə və ərazilərin inkişaf obyekti kimi tədqiqinin və turizm məhsulunun turistlərə çatdırılması istiqamətində nəticələri acıqlanır.
Tədris zamanı əsas prinsip turizm müəssisələrində xidmət keyfiyyətinin yüksədilməsində məqsəd və vəzifələr, həmçinin turməhsulun reqabətqabiliyyətinin yüksəldilməsinə kömək edən keyfiyyətin daha effektiv işçi modellərinin araşdırılmasıdır, eləcə də turizm məhsulunun bazarda turistlərə adekvat çatdırılması proseslərini özündə birləşdirir. Rəqabət qabiliyyətinin yüksəldilməsinin daha effektiv yolu turistlərin dəyişən tələbatlarının minimum xərclərlə ödənilməsindən asılı olaraq turməhsulun keyfiyyətini operativ idarəetmə bacarığıdır. Burada bazar turizm sahəsində əlverişli sahibkarlıq mühitinin formalaşdırılması, əlaqələrin yaradılması və s. məqsədi ilə biznesin ayrı-ayrı formaları arasında üzvi vəhdət, məntiqi ardıcıllıq nəzərə alınmışdır.Qonaqlara göstərilən xidmət səviyyəsinin inkişaf etdirilməsi və eləcədə bu sahədə kadr potensialının artırılması vacib proseslərdəndir.

Tələbələrə ekskursiya fəaliyyəti zamanı bələdçilik anlayışının müəyyən edilməsi, və bu sahənin perspektiv inkişafını təmin edilməsi, cəmiyyətin sosial-iqtisadi həyatında turizmin rolunun qiymətləndirilməsi, haqqında biliklər verməkdən ibarətdir.

**VII.Davamiyyətə verilən tələblər:** Fənn üzrə semestr ərzində buraxılmış auditoriya saatlarının ümumi sayı Elmi Şuranın 16 may 2024-cü il tarixli qərarına uyğun olaraq davamiyyət meyarları nəzərə alınmaqla müəyyən olunmuş həddən yuxarı olduğu halda tələbə həmin fəndən imtahana buraxılmır, onun həmin fənn üzrə akademik borcu qalır.

**VIII.Qiymətləndirmə:** Tələbələrin biliyi 100 ballı sistemlə qiymətləndirilir. Bundan 50 balı tələbə semestr ərzində, 50 balı isə imtahanda toplayır. Semestr ərzində toplanan 50 bala aşağıdakılar aiddir: 20 bal seminar və laboratoriya dərslərində fəaliyyətinə, 30 bal kollokviumların nəticələrinə görə. Əgər fənn üzrə həm seminar və həmdə laboratoriya varsa onda 10 bal seminara, 10 bal isə laboratoriyaya görə verilir.

Qiymətləndirmə zamanı Elmi Şuranın 16 may 2024-cü il tarixli qərarina uyğun olaraq qiymətləndirmə meyarları nəzər alınır.

İmtahan biletinə bir qayda olaraq fənni əhatə edən 5 sual daxil edilir.

Qiymət meyarları aşağıdakılardır:

*-10 bal- tələbə keçilmiş material dərindən başa düşür, cavabı dəqiq və hərtərəflidir.*
*-9 bal-tələbə keçilmiş material tam başa düşür, cavabı dəqiqdir və mövzunun mətnini tam aça bilir.*
*-8 bal-tələbə cavabında ümumi xarakterli bəzi qüsurlara yol verir;*
*-7 bal- tələbə keçilmiş material başa düşür, lakin nəzəri cəhətdən bəzi məsələləri əsaslandıra bilmir*
*-6 bal- tələbənin cavabı əsasən düzgündür.*
*-5 bal-tələbənin cavabında çatışmazlıqlar var, mövzunu tam əhatə edə bilmir.*
*-4 bal- tələbənin cavabı qismən doğrudur, lakin mövzunu izah edərkən bəzi səhvlərə yol verir;*
*-3 bal- tələbənin mövzudan xəbəri var, lakin fikrini əsaslandıra bilmir;*
*-1-2 bal- tələbənin mövzudan* qismən xəbəri var.
-0 bal- suala cavab yoxdur.

Tələbənin imtahanda topladığı balın miqdarı 17-dən az olmamalıdır. Əks təqdirdə tələbənin imtahan göstəriciləri semester ərzində tədris fəaliyyəti nəticəsində topladığı bala əlavə olunmur.

Semestr nəticəsinə görə yekun qiymətləndirmə (imtahan və imtahanaqədərki ballar əsasında)



CamScanner ilə skan edilib

| № | Bal | Qiymət | |
|---|---|---|---|
| | | Sözlə | Hərflə |
| 1. | 91-100 | əla | A |
| 2. | 81-90 | çox yaxşı | B |
| 3. | 71-80 | yaxşı | C |
| 4. | 61-70 | kafi | D |
| 5. | 51-60 | qənaətbəxş | E |
| 6. | 50 və ondan aşağı | qeyri-kafi | F |

**IX.Davranış qaydalarının pozulması:** *Tələbə Universitetin daxili nizam –intizam qaydalarını pozduqda əsasnamədə nəzərdə tutulan qaydada tədbir görüləcək.*

**X.Təqvim planı:** *Mühazirə 10 saat, Seminar 4 saat* ***Cəmi: 14 saat***

| № | Keçirilən mühazirə mövzularının məzmunu | Mühazirə | |
|---|---|---|---|
| | | Saat | Tarix |
| 1 | 2 | 3 | 4 |
| 1. | **Mövzu 1.Turizm və ekskursiya fəaliyyətinin yaranması tarixi,bələdçilik anlayışı və formalaşması aspektləri**<br>Plan:<br>1. Turizmin yaranmasının inkişaf mərhələləri<br>2. Ekskursiya və onun tarixi inkişaf mərhələləri<br>3. Ekskursiyanın sosial - iqtisadi mahiyyəti və xüsusiyyətləri<br>4. Ekskursiyaların keçirilməsi zamanı insan amillərinin rolu<br>5. Gid və bələdçi anlayışları<br>6. Bələdçilik peşəsinin formalaşması tarixi mərhələləri | 2 | |
| 2. | **Mövzu 2. Bələdçilik peşəsinin formalaşması istiqamətləri**<br>Plan:<br>1. Bələdçilik peşəsinin formalaşması aspektləri<br>2. Bələdçinin vəzifələri<br>3. Ekskursiya rəhbərinin peşəkarlığı<br>4. Bələdçinin çıxışı,daxili nitq,xarici nitq,şifahi nitq<br>5. Tur bələdçi tələbləri, onun peşəkar bacarıqları<br>6. Ekskursiya bələdçisinin hüquqları | 2 | |
| 3. | **Mövzu 3. Turizmdə bələdçilik və onun xüsusiyyətləri**<br>Plan:<br>1. Bələdçilik konsepsiyası və bələdçilik xidməti<br>2. Turizm sektorunda bələdçiliyin əhəmiyyəti | 2 | |



CamScanner ilə skan edilib

| | | | |
|---|---|---|---|
| | 3. Turizm sektorunda bələdçiliyə ehtiyacın səbəbləri.<br>4.Turist bələdçisinin şəxsi və peşəkar xüsusiyyətləri.<br>5.Turist bələdçisinin bacarıqları.<br>6.Bələdçi lisensiyasının alınma proseduru | | |
| 4. | **Mövzu 4. Turistlər qrupunun tələb və gözləntilərinin müəyyənləşdirilməsi və buna təsir edən amillər**<br><br>**Plan :**<br><br>1. Qonaqların məmnuniyyətinin formalaşdırılması prosesləri<br>2. Qonaqlara təqdimat etmə prosesləri<br>3. Effektiv ekskursiya cədvəlinin hazırlanması<br>4. Turizm fəaliyyəti göstərən müəssisələrin informasiyalarının turistlərə çatdırılması<br>5. İstehlakçıların qərar qəbulu modeli<br>6. İnsan tipləri və onların davranışları | 2 | |
| 5. | **Mövzu 5. Turist-ekskursiya xidmətlərinin sertifikatlaşdırılması**<br><br>**Plan :**<br>1.Turizm müəssisələrində ekskursiya bələdçisinin seçim prosesi<br>2.Ekskursiya işində qrupların idarə olunması və ünsiyyət<br>3.Turist-ekskursiya xidmətlərinin sertifikatlaşdırılmasının təşkilati strukturu<br>4. Turist-ekskursiya xidmətləri göstərilməsində ümumi tələblər<br>5.Turistlərin və ekskursantların təhlükəsizliyinin təmin olunmasına dair tələblər<br>6.Azərbaycan Respublikasında bəzi fəaliyyət növlərinə xüsusi razılığın verilməsi haqqında qaydalar | 2 | |
| | **Cəmi:** | 10 | |

**XI.Fənn üzrə tələblər:** Tələbə fənnin öyrənilməsi zamanı bacarmalıdır:
- bələdçilik anlayışını;
- bələdçinin iş funksiyasını;
-turizm sənayesi üzrə tədqiqat aparmağı və proqnozlaşdırma işlərini yerinə yetirməyi;
- turizmdə müəssisələrində iqtisadi məsələlərin təkmilləşdirilməsində alternativ qərar qəbuletmə problemlərini eləcə də tədqiqatçı kimi qiymətləndirmək bacarıqlarını əldə edəcəklər.

**XII. Fənn üzrə təlimin nəticələri:**
- Turizm bələdçiliyi fəaliyyətinin mahiyyətini başa düşür.
- Bələdçiliyin əsas xüsusiyyətləri və iş prinsipləri haqqında təsəvvürə sahib olur.
- Bələdçilik fəaliyyətinin təşkili üçün nəzəri biliklərə yiyələnir.
- Bələdçilik fəaliyyətinin təşkili sahəsində zəruri praktiki bacarıqlar qazanır.
- Bələdçilik texnikasından xəbərdardır.
- "Bələdçi çantası" nın mahiyyətini izah edə bilir.

**XIII.Tələbələrin fənn haqqında fikirlərinin öyrənilməsi : ------------------------------------**



CamScanner ilə skan edilib

## XIV. Kollokvium sualları:

1. Turizmin yaranmasının inkişaf merhələləri
2. Ekskursiya və onun tarixi inkişaf mərhələləri
3. Gid və bələdçi anlayışları
4. Bələdçilik peşəsinin formalaşması tarixi mərhələləri
5. Ekskursiyaların keçirilməsi zamanı insan amillərinin rolu
6. Bələdçilik peşəsinin formalaşması aspektləri
7. Bələdçinin vəzifələri
8. Ekskursiya rəhbərinin peşəkarlığı
9. Bələdçinin çıxışı,daxili nitq,xarici nitq,şifahi nitq
10. Tur bələdçi tələbləri, onun peşəkar bacarıqları

## XV.İmtahan sualları:

1. Turizmin yaranmasının inkişaf mərhələləri
2. Ekskursiya və onun tarixi inkişaf mərhələləri
3. Ekskursiyanın sosial - iqtisadi mahiyyəti və xüsusiyyətləri
4. Ekskursiyaların keçirilməsi zamanı insan amillərinin rolu
5. Gid və bələdçi anlayışları
6. Bələdçilik peşəsinin formalaşması tarixi mərhələləri
7. Bələdçilik peşəsinin formalaşması aspektləri
8. Bələdçinin vəzifələri
9. Ekskursiya rəhbərinin peşəkarlığı
10. Bələdçinin çıxışı,daxili nitq,xarici nitq,şifahi nitq
11. Tur bələdçi tələbləri, onun peşəkar bacarıqları
12. Ekskursiya bələdçisinin hüquqları
13. Bələdçilik konsepsiyası və bələdçilik xidməti
14. Turizm sektorunda bələdçiliyin əhəmiyyəti
15. Turizm sektorunda bələdçiliyə ehtiyacın səbəbləri.
16. Turist bələdçisinin şəxsi və peşəkar xüsusiyyətləri.
17. Turist bələdçisinin bacarıqları.
18. Bələdçi lisensiyasının alınma proseduru
19. Qonaqların məmnuniyyətinin formalaşdırılması prosesləri
20. Qonaqlara təqdimat etmə prosesləri
21. Effektiv ekskursiya cədvəlinin hazırlanması
22. Turizm fəaliyyəti göstərən müəssisələrin informasiyalarının turistlərə çatdırılması
23. İstehlakçıların qərar qəbulu modeli
24. İnsan tipləri və onların davranışları
25. Turizm müəssisələrində ekskursiya bələdçisinin seçim prosesi
26. Ekskursiya işində qrupların idarə olunması və ünsiyyət
27. Turist-ekskursiya xidmətlərinin sertifikatlaşdırılmasının təşkilati strukturu
28. Turist-ekskursiya xidmətləri göstərilməsində ümumi tələblər
29. Turistlərin və ekskursantların təhlükəsizliyinin təmin olunmasına dair tələblər



CamScanner ilə skan edilib

30. Azərbaycan Respublikasında bəzi fəaliyyət növlərinə xüsusi razılığın verilməsi haqqında qaydalar

**"Bələdçiliyin əsasları"** fənni üzrə fənninin sillabusu **6008007-"Turizm bələdçiliyi"** ixtisası üzrə tədris planı və fənn proqramı əsasında tərtib edilmişdir.

Sillabus "*İqtisadiyyat və innovativ idarəetmə*" kafedrasında müzakirə edilərək təsdiq edilmişdir. (22 dekabr 2025-ci il, 04 №-protokol).

**Kafedra müdiri**
**v.i.e :** **dos.G.T.Əliyeva**

**Fənn müəllimi:** **müəl.İ.N.Dadaşova**



CamScanner ilə skan edilib